ISSN:2148-2292
Prof. Dr. Yaqub Mahmudov 80. Yıl Armağanı Özel Sayısı
Akademik Tarih ve Düşünce Dergisi, 6(5) Kış 2019 ss. 328-345
Academic Journal of History and Idea, 6(5) Winter 2019 pp. 328-345
Araştırma Makalesi
Original Article

# Bakıda Azərbaycan Milli Siyasi Qüvvələri Və Sosialistlər Arasında Ziddiyyətlərə Dair (Mart-Sentyabr 1917)

**Aygün Əzimova***
**ORCID:0000-0002-1119-1856**

**Xülasə**

Məqalədə Rusiyada baş verən Fevral burjua-demokratik inqilabından sonra Bakıda başlayan siyasi mübarizənin ilkin dövrü tədqiq edilmişdir. Bu zaman hadisələr həmin dövr tarixini öyrənmək üçün başlıca mənbə olan dövrü mətbuata istinadən, müqayisəli təhlil aparılmaqla araşdırılmış, Bakıda Azərbaycan milli qüvvələri ilə sosialistlər arasındakı münasibətləri izah edəcək yeni məqamlar üzə çıxarılmışdır. İnqilabdan sonrakı ilk aylarda Bakıda baş verən hadisələr buradakı sosialistlər ilə Azərbaycan milli qüvvələri arasında ziddiyyətlərin olduğunu göstərmişdi. Milli ərazidə müxtəlif sosial-ictimai tədbirləri həyata keçirməklə öz siyasi məqsədlərinə çatmaq istəyən sosialistlər milli amilləri nəzərə almırdılar. Milli qüvvələr hər vəchlə inqilabi proseslərə qoşulmağa can atırdı. Lakin ilk gündən Azərbaycan milli qüvvələrinin sosialistlər tərəfindən inqilabi proseslərdən təcrid olunması xətti götürülmüşdü. Sosialist qüvvələr müsəlman əhalinin siyasi cəhətdən kifayət qədər şüurlu olmadığını və ətalətli kütlə olduğunu iddia edərək demokratik orqanlarda təmsil olunmalarına laqeyd yanaşır və bunu yalnız deklarativ olaraq qəbul edirdilər. Həm ərzaq komitələrinə seçkilər, həm də mədən rayonlarının şəhərə birləşdirilməsi məsələsi sosialistlərə müsəlmanların bir güc olduğunu nümayiş etdirir və onlara etibar edilməsini tələb edirdi.

**Açar sözlər:** Azərbaycan milli siyasi qüvvələri, sosialist qüvvələr, Bakı Soveti, ərzaq komitələrinə seçkilər, neft mədənləri rayonlarının şəhərə birləşdirilməsi

**Gönderme Tarihi: 25/11/2019** **Kabul Tarihi:26/12/2019**

---

* *Araştırma Görevlisi,Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu, E-mail:: aygun.azimova77@gmail.com*

© ATDD Tüm Hakları Saklıdır
CC BY

# Political Contradictions Between Azerbaijani Nationalists And Socialists In Baku

## (March - September, 1917)

**Aygun Azimova**

**Abstract**

The article explores the initial period of political struggle in Baku after the February bourgeois-democratic revolution in Russia. On the basis of contemporary press publications, which are the main sources for studying the events of that period, new insights have been identified by comparative analysis. These insights clarify the essence of the relationship between Azerbaijani nationalists and socialists in Baku. Events that took place in Baku in the first post-revolutionary months showed serious contradictions between socialists and Azerbaijani nationalists. Socialists, who sought through various social measures to achieve their political objectives at a local level, did not consider the national interests. Nationalists sought also to play an active role in revolutionary processes. However, since the first days of the revolution, socialists removed Azerbaijani nationalists from revolutionary activities. Socialists were indifferent to Muslims representation in democratic authorities, alleging their lack of political consciousness. They regarded Muslims as an ignorant, backward mass, requiring only symbolic levels of representation. Two issues demonstrated the strength of Muslim organizations to the socialists: elections to the food committees; and also debate on joining oilfield areas to the city of Baku.

**Keywords:** Azerbaijan national political power, socialist power, Baku Council, elections to food committees, joining oil fields to the city

**Received Date: 25/11/2019** **Accepted Date: 26/12/2019**

# О Противоречиях Между Азербайджанскими Политическими Силами И Социалистами В Баку (Март - Сентябрь 1917)

**Айгюн Азимова**

## Резюме

В статье исследован начальный период политической борьбы в Баку после Февральской буржуазно-демократической революции в России. При сравнительном анализе материалов периодической печати, являющейся первостепенным источником для изучения событий того периода, выявлен целый ряд новых аспектов, проясняющих суть взаимоотношений между азербайджанскими национальными силами и социалистами в Баку.События, произошедшие в Баку в первые послереволюционные месяцы, свидетельствовали о серьезных противоречиях между социалистами и азербайджанскими национальными силами. Социалисты, стремившиеся посредством осуществления различных социальных мер достичь своих политических целей на конкретной национальной территории, не учитывали национальный фактор. Национальные же силы всячески стремились играть активную роль в революционных процессах. Однако с первых же дней революции социалисты взяли курс на отстранение азербайджанских национальных сил от революционных процессов. Ссылаясь на якобы недостаточную политическую сознательность мусульманского населения, представляя его как невежественную, отсталую массу, социалистические силы равнодушно относились к обеспечению представительства мусульман в органах демократической власти, признавали эту задачу лишь на декларативном уровне. Но выборы в продовольственные комитеты, а также развитие вопроса о присоединении нефтяных промысловых районов к городу Баку, продемонстрировали социалистам силу мусульманских организаций и необходимость доверия по отношению к ним.

**Ключевые слова:** Азербайджанские национальные политические силы, социалистические силы, Бакинский Совет, выборы в продовольственные комитеты, присоединение нефтяных промысловых районов к городу.

**Получено: 25/11/2019** **Принято: 26/12/2019**

## Giriş

1917-ci ildə Rusiyada baş verən Fevral burjua-demokratik inqilabı Azərbaycan ictimai-siyasi mühitində entuziazmla qarşılanmışdı. Burada gizli fəaliyyətdən açıq fəaliyyətə keçən və yeni yaranan müxtəlif partiya və ictimai-siyasi təşkilatlar böyük ruh yüksəkliyi ilə siyasi mübarizə meydanına atılmışdılar. Lakin Rusiyanın mərkəzində başlayan inqilabi proseslər əyalətlərə nüfüz etdikdə burada milli amillərin təsiri ilə mürəkkəb bir simbioz yaranırdı və cox qısa müddətdə inqilabın yaratdığı imkanların gerçəkləşməsi qarşısında ciddi maneələr yarandığı aydın oldu.

Həmin vaxt Azərbaycanda gedən siyasi proseslər Bakıda hadisələrin hansı məcrada inkişaf edəcəyindən çox asılı idi. Burada Azərbaycan milli qüvvələri və sosialistlər (eser, menşevik, bolşevik) olaraq iki əsas mərkəz qərarlaşmışdı. Hər iki mərkəz inqilabi dəyişikliklərdə maraqlı olsa da, tezliklə tərəflər arasında müxtəlif məsələlərin həlli üzərində ziddiyyətlər üzə çıxmışdı. İnqilab Bakı kimi sənaye şəhərində ilk növbədə fəhlələrin geniş dəstək verdikləri siyasi qüvvələrin-sosialistlərin fəaliyyətinə geniş imkan açırdı. Lakin bir çox məsələlərdə onların mövqeyi Azərbaycan milli demokratiyasının maraqları ilə ziddiyyətə gətirib çıxarırdı. Sonradan daha da kəskinləşən bu ziddiyyətlər inqilabdan sonrakı ilk aylarda əsasən şəhərin sosial-ictmai xüsusiyyətlərindən irəli gəlirdi.

### Milli və Sosialist Qüvvələrin Mövqeyi

Fevral inqilabından sonra həm liberal və demokratik, həm də mühafizəkar mövqelilərin daxil olduğu Azərbaycan milli qüvvələrinin mərkəzləşməsi prosesi başlamışdı. 1917-ci ilin mart ayında Bakıda ətrafında Azərbaycan milli burjuaziyasi və ziyalıları burada çəmlənən 30-a yaxın müsəlman ictimayi təşkilatı var idi və martın 27-də həmin təşkilatlardan göndərilən nümayəndələrdən Bakı Müsəlman İctimai və Siyasi Təşkilatları Milli Şurası və onun Müvəqqəti Komitəsi təşkil edilmişdi. Bakı Müsəlman Komitəsi kimi yaransa da, komitə ilk gündən Ümumazərbaycan milli komitəsi kimi qəbul edilmişdi. Həmin dövrün qəzet məlumatlarından məlum olur ki, Müsəlman Komitəsinə Azərbaycanın hər yanından xalqın problemləri ilə bağlı müraciətlər edilirdi. Şəhərin müsəlman əhalisi və Bakı kəndləri öz problemləri ilə bağlı ilk növbədə komitəyə müraciət edirdilər. Komitə müsəlman əhali ilə bu hakimiyyət orqanları arasında vasitəçi olaraq problemlərin həlli yollarını axtarırdı. Lakin qısa müddət ərzində milli demokratlar və onların lideri olan Müsavat partiyası milli qüvvələr arasında önə çıxdı. Rusiyanın demokratikləşməsi və federalizm tərəfdarı olan milli demokratlar inqilabi yeniləşməni alqışlayır və həyata keçirilən sosial-ictimai tədbirləri dəstəkləyirdilər.

Bakıda sosialistləri Ümumrusiya sosialist partiyalarının yerli komitələri təmsil edirdi ki, buraya eser (Ümumrusiya sosialist inqilabçıları), menşevik (sosial demokratlar ) və bolşeviklər (sosial demokratların radikal qolu) daxil idi. Cüzi sayda azərbaycanlıları çıxmaqla hər üç siyasi qüvvə əsasən, rus, erməni və s. millətlərin nümayəndələrindən ibarət idi. Bu cəhət də siyasi mübarizənin gedişinə ciddi təsir edirdi. Bu zaman millətçi mahiyyətinə rəğmən, hələ 1907-ci ildə[1] siyasi proqramına əl gəzdirərək özünü sosialist inqilabçı partiya kimi təqdim edərən ermənilərin Daşnaksütyun partiyası da sosialistlər sırasına qoşulmuş və bəhs edilən dövrdə Bakıda sosialist mərkəzində yer almışdı.

Bakı Fəhlə və Əsgər Sovetində (Bakı Soveti) cəmlənən sosialist qüvvələr mart- oktyabr ayları arasındakı dövrdə daha çox sosial-iqtisadi məsələlərin həlli istiqamətində tədbirlər həyata keçirməyə çalışırdılar. Bunlar ilk növbədə fəhlələrin mənafeyinə üyğun tədbirlər -8 saatlq iş gününün tətbiqi, sahibkarlar və fəhlələr arasında müştərək müqavilənin qəbulu, ərzaq məsələsinin həlli və s. idi.[2] Əvvəlcə, hökumətə münasibətdə inqilabi nəzarət funksiyasını öz üzərinə götürən Bakı Soveti[3] bir qədər sonra özünü hakimiyyət orqanı kimi aparmağa başlamışdı. Bu isə əslində orada təmsil olunan sosialistlər üzərində məsuliyyəti artırırdı.

Bakının spesifik ictimai və milli xüsusiyyəti burada həyata keçiriləcək inqilabi tədbirlərdə obyektiv olaraq milli amilin nəzərə alınmasını tələb edirdi. Lakin inqilabi hakimiyyət orqanlarının işi bunun əksini nümayiş etdirirdi. Əhalinin yarısından çoxunu təşkil edən azərbaycanlıların Müvəqqəti Hökumətin yerli orqanı olan İctimai Təşkilatların İcraiyyə Komitəsində (İTİK) və Bakı Sovetində lazımınca təmsil olunmaması milli amilin nəzərə alınmamasının nəticəsi idi. Daha sonra inqilabi tədbirlər kimi həyata keçirilən tədbirlərdə də bu amilin nəzərə alınmaması Azərbaycan milli qüvvələri ilə ilkin ziddiyyətlərə rəvac vermiş oldu. Bu dövrdə inqilabi demokratiyanın müsəlmanlara (azərbaycanlılara) münasibəti onların milli demokratiya ilə nə dərəcədə müttəfiq olmasını müəyyən edə biləcək incə məsələlərdən biri idi və şəhərin qeyri-müsəlman əhalisinin ictimai rəyi ilə sıx bağlı idi.

**Antimüsəlman Əhvali-ruhiyyə və Müsəlmanların Bakı Sovetində Təmsil Olunması Məsələsi**

1917-ci il boyu Bakı ictimai-siyasi mühitində (təbii ki, qeyri-müsəlmanlar arasında–A.Ə.) antimüsəlman əhvali-ruhiyyənin mövcudluğu bir neçə məsələ ilə bağlı vəziyyətlərdə özünü göstərmişdi.

Müsəlmanların silahlanması barədə yayılan şayiələrdən qidalanan (Hələ Fevral inqilabından sonrakı ilk aylardan Qafqazın əksər yerlərində müsəlmanların silahlanması barədə təxribatçı şayiələr

---

[1] Bax: İrada Baqirova, *Politiceskiye partii i orqanizatsii Azerbaydjana v naçale XX veka,* Baku: Elm, 1988, 213.
[2] *Bolşeviki v borbe za pobedu sotsialistiçeskoy revolyutsii v Azerbaydjane* 1917-1918qq., (dokumentı i materialı), Baku, Azerneşr,1957, 8.
[3] İzvestiya Soveta raboçix i voennıx deputatov Bakinskoqo rayona, 8 marta 1917, №.3 . (bundan sonra: İzvestiya Bakinskoqo Soveta...)

yayılmaqda idi -A.Ə.) bu əhvali-ruhiyyə sosialist qüvvələrdə müsəlman əhalinin sinfi və siyasi cəhətdən qeyri-şüurluluğu, passivliyi, savadsızlığı barədə fikirlərlə güclənirdi.

Məsələ burasında idi ki, Fevral inqilabı ilk növbədə milli məsələni üzə çıxardığından, çar hakimiyyəti dövründə sıxışdırılan müsəlmanların indi bu maneə aradan qalxdıqdan sonra mütləq hansısa addımlar atacaqları gözlənilirdi. Bunu ictimaiyyət və xüsusən də, qeyri-müsəlman əhali gözləyirdi. Aprel-may ayları boyunca bütün mətbuat orqanlarında müsəlmanların silahlanması barədə xəbərlər verilirdi. Çarizm dövründə hərbi mükəlləfiyyət daşımaqdan azad edilmiş və faktiki olaraq da hərbi işdən uzaqlaşdırılmış azərbaycanlıların yeni şəraitdə özünü qorumaq instinktinin diktəsi ilə silah əldə etməyə çalışmaları da məntiqəuyğun olsa da, əslində ciddi bir silahlanma prosesi yox, bu barədə şişirdılmiş məlumat və şayiələr baş alıb gedirdi. Bu isə erməni və rus əhalinin narahatlığına səbəb olurdu. Məsələnin ciddi xarakter alması ictimai-siyasi təşkilatlarin bu məsələyə münasibət bildirməsini tələb edirdi.

Şayiələr o qədər artmışdı ki, müxtəlif təşkilatlar mətbuatda əhalini davamlı olaraq sayıqlığa çağırır, müsəlmanların silahlanması barədə xəbərlərin təxribatçılıq olması barədə xəbərdarlıq edirdilər. Müsəlman əhalinin təmsilçisi kimi Müsəlman Komitəsi də məsələnin ciddiliyini nəzərə alaraq Bakı Sovetindən və Hərbi Deputatları Sovetindən öz üzvlərindən müştərək komissiya yaratmasını xahiş etmişdi. Komitə öz növbəsində həmin komissiyada iştirak etmək üçün 4 nəfəri- B. Cavanşiri, Ə. Həsənovu, A. Kazımzadəni, Ə. Qulubəyovu seçərək bu barədə Müvəqqəti Hökumətin yerli orqanı – İTİK-ni məlumatlandırmışdı. Mayın əvvəllərində komitə bəyanat verərək şaiyələrə inanmamağa çağırmışdı. Milli Komitə hesab edirdi ki, məhz sovetlər təsirli ictimai təşkilatlar kimi bu təxribatların qarşısını ala bilərlər. [4]

Doğrudur, həm İTİK, həm də Sovet əhaliyə müraciətlərində genişlənəcəyi halda inqilaba təhlükə yarada bilən bu şaiyələrin təxribatçı xarakter daşıdığını bildirmişdilər. Lakin bununla belə şayiələrin ictimai rəyə təsirinin qarşısını almaq mümkün olmurdu. Hətta məsələ o dərəcədə ciddi bir şəkil almışdı ki, may ayında Moskvada keçirilən Ümumrusiya müsəlmanları qurultayında müzakirə edilmiş və oradaca mərkəzi hakimiyyət orqanlarını məsələ ilə bağlı məlumatlandırmaq və sonra da vəziyyəti yerindəcə təftiş etmək məqsədi ilə Qafqaz cəbhəsinə yollanmaq üçün nümayəndə heyəti təşkil edilmişdi.[5] Çünki bu şayiələr Azərbaycan daxil olmaqla bütün Qafqaz cəbhəsi boyu ərazilərdə ixtişaşlarla nəticələnə bilərdi.

Yaradılmış heyət mayın son günlərində Bakıya gəlmiş və onun iştirakı ilə Bakı Sovetinin iyunun 1-də keçirilən ümumi yığıncağında "müsəlmanlar arasında aqressiv əhvali–ruhiyyə" müzakirə edilərək müsəlmanların silahlanması barədə məsələyə münasibət bildirilmişdi. Müsəlman əhalinin inqilabi demokratiyanın idarə etməkdə olduğu ictimai-siyasi həyatdan təcrid olunması vəziyyətini müşahidə edən

[4] Kaspi, 2 maya 1917, № 96.
[5] Kaspi, 2 maya 1917, № 96.

nümayəndə heyəti üzvlərindən Hacı Murat və Tokumbetov müsəlmanların da Bakı Sovetinin tərkibinə daxil edilməsini təklif etmişdilər.[6]

Göründüyü kimi, müsəlmanların Bakı Sovetində təmsil olunması təklifi vəziyyətdən çıxış yolu hesab edilmişdi. Onu da qeyd etmək lazımdır ki, müsəlmanların sovet təsisatında iştirak etmək arzusu Rusiyanın digər müsəlman təşkilatlarını da düşündürürdü. Petroqraddakı Ümumrusiya Müsəlman Şurası İcraiyyə Komitəsinin iyun ayında keçiriləcək Sovetlər qurultayına özünün 3 nümayəndəsini göndərmək istəyini bildirmiş, lakin bu Petroqrad Soveti tərəfindən qəbul edilməmiş və müsəlmanlar arasında sinfi differensasiyanın zəif olması səbəbindən bu hüquqdan onların məhrum edildikləri bildirilmişdi. Lakin Müsəlman Komitəsinin ciddi etirazlarından sonra Salikov, Mamleyev və Xocayevin qurultayda məşvərətçi qismində iştirakına icazə verilmişdi.[7]

Ümumiyyətlə, sosialist düşərgəyə mənsub olan siyasi qüvvələr müsəlman əhalinin siyasi cəhətdən kifayət qədər şüurlu olmadığı və ətalətli kütlə olduğunu iddia edərək demokratik orqanlarda təmsil olunmalarına laqeyd yanaşırdılar. Lakin tezliklə baş verənlər onların bu iddiasının əksini sübut edərək milli qüşərgə ilə ilk ciddi mövqe fərqini nümayiş etdirmişdi. Belə vəziyyət şəhərin ərzaq problemini həlli ilə əlaqədar ortaya çıxmışdı.

## Ərzaq Komitələrinə Seçkilər

Ərzaq məsələsinin həlli bəhs edilən dövrdə çox mühüm əhəmiyyət daşıyırdı. I Dünya müharibəsi başlayandan Rusiyanın hər yerində olduğu kimi, Bakıda da əhalinin ərzaqla təhcizatında ciddi problemlər yaranmışdı. Bu isə əhalinin narazılıqlarına səbəb olaraq yerlərdə ciddi problemlər yarada bilərdi. Yaşadığı dövrün bu gerçəkliyinə diqqət yetirən M.Ə. Rəsulzadə də yazırdi"...Ən böyük və ümumi məsələlər ərzaq məsələsi qarşısında unudulur".[8]

Həmin dövrdə Bakının ərzaq təhcizatı demək olar ki, tamamilə idxaldan asılı idi. Əsas təhcizat mənbələrindən biri Şimali Qafqaz idi və orada hansı qüvvələrin siyasi hakimiyyətə gəlməsi Bakı ərzaq orqanlarının işinə dərhal təsir edirdi. Şimali Qafqazda vəziyyətin pisləşməsi və nəqliyyat sisteminin korlanması şəhərin ərzaq təchizatını faciəvi şəkilə salırdı. Ərzaq təhcizatı çətinliyi ilk növbədə ərzaq idarələrinin işində narazılıq yaradırdı. Bakı Soveti və İTİK ilk günlərdən ərzaq problemini həll etmək üçün tədbirlər görməyə başlasalar da, nəticə ürəkaçan deyildi.

Ərzaq probleminin həlli məsələsi bir tərəfdən Bakı Sovetindəki siyasi qüvvələrinin özləri arasında, digər tərəfdən isə Azərbaycan milli qüvvələri ilə inqilabi düşərgə arasında kəskin fikir ayrılığı yaratmışdı. Günü-gündən siyasiləşən bu məsələ Bakı Soveti qüvvələrinin yerli müsəlman əhalinin maraqlarını nəzərə almadığını göstərən ilk məsələ idi. Hələ mart ayında bu problemin həlli üçün bir sıra tədbirlər görülsə də, Quberniya Ərzaq Komitəsi ərzaq məsələsinin həllində çətinlik çəkirdi. Komitənin

[6] İzvestiya Bakinskoqo Soveta.., 4 iyunya 1917, №.51.
[7] Kaspiy, 18 iyulya 1917, №134.
[8] Məmməd Əmin Rəsulzadə, *Əsərləri. 1917- aprel 1918.*, IV cild, Bakı: Qanun nəşriyyatı, 2013, 293.

sədri A. Stopani dəyirmanlara və limanlara nəzarət etmək və müsadirələr aparmağın çətinliyini əsas gətirərək komitənin kifayət qədər hakimiyyəti olmamasından şikayətlənir və Ərzaq diktaturası yaratmağın zəruriliyini göstərirdi. O, Bakı əhalisinin "savadsızlığını, siyasi cəhətdən qeyri-şüurluluğunu və təxribatlara tez uyduğunu əsas gətirərək ərzaq komitəsinin işinə qarşı çıxanları həbs etmək" kimi səlahiyyətlər istəmişdi.[9] Lakin nəzərə almaq lazımdır ki, ərzaq diktaturası tədbiri yalnız yoxsul təbəqənin maraqlarına uyğun gəldiyi halda, komitələrin hər hansı müsadirə tədbiri ilk növbədə şəhərin yerli müsəlman əhalisinin burjuaziya və tıcarətlə məşğul olan hissəsinə qarşı yönəlirdi. Məsələn, həmin dövdə Bakıda və hətta digər şəhərlərdə də çoxlu dəyirmanları eləcə də, Şimali Qafqazda və Vladiqafqaz dəmir yol stansiyalarında özünün şəxsi tədarük məntəqələri olan [10]Ağabala Quliyevin həbs edilməsi barədə Bakı Sovetinin İcraiyyə Komitəsi (Bakı Soveti İK ) qarşısında məsələ qaldırılmışdı.[11] Onu da qeyd etmək lazımdır ki, həmin dövr üçün Bakıda azərbaycanlı tacirlər, ticarət burjuaziyasının 47,4%-ni[12] təşkil edirdilər. Şəhərdəki ticarət müəssisələrinin 52,2 %-i yenə azərbaycanlılara məxsus idi.[13] Ələlxsus, xırda dükanların 86 faizi azərbaycanlıların əlində idi.[14]

Bakı quberniyası qəzalarında ərzaq probleminin həlli işində Müsəlman Komitəsi də fəallıq göstərməyə çalışaraq İTİK və Quberniya Ərzaq Komitəsinə yardım edirdi. Ərzaq komitəsinin iclasında Dumanın deputatı, fəal ictimai xadim Ağa Aşurov quberniya əhalisinin əsas hissəsinin müsəlmanlardan ibarət olduğunu əsas göstərməklə komitədə müsəlmanların çoxluq təşkil etməsinə imkan yaradılmasını təklif etmiş, başqa sözlə, proporsional prisip əsasında təmsilçiliyin tətbiq edilməsi istəmişdi. Lakin cavab olaraq ona ərzaq təşkilatlarında milli nümayəndəlik məsələsinə Diyar Ərzaq qurultayında baxıldığı və bunun qətiyyətlə rədd olunduğu bildirilmişdi. Menşevik Yakobson açıq şəkildə *"...prinsipcə bu cür məsuliyyətli orqana qara və mariflənməmiş kütlənin daxil edilməsinin əleyhinə olduğunu"* söylədikdə isə A. Aşurov onun müsəlman əhalini qara, qeyri-şüurlu kütlə hesab etməsini müsəlmanlar üçün təhqir hesab edərək iclası tərk etmişdi.[15]

Əhalinin narazılığının qarşısını almaq üçün İTİK Müvəqqəti Hökumətin qərarına uyğun olaraq demokratik əsaslarla yeni Şəhər Duması seçilənədək müvəqqəti olaraq 10-u şəhərdə, 6-sı mədənlərdə yerləşəcək mülki ərzaq komitələri yaratmağı qərara almışdı.[16] Ümumi seçkilər əsasında yaradılacaq komitələrə ərzaq ehtiyatının qeydiyyata alınması, ərzağın paylanmasına nəzarət, bu işdə sui-istifadə

---

[9] İzvestiya Bakinskoqo Soveta.., 17 maya 1917, №.36.
[10] M. Ə. Musayev, *XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər),* Bakı: Elm, 1975, 73.
[11] İzvestiya Bakinskoqo Soveta.., 17 maya 1917, №.36.
[12] M.Ə. Musayev, *Bakı şəhərinin ticarəti...,* 73.
[13] Ali Soybat Sumbatzade, *Sotsialno-ekonomiçeskie predposılki pobedı sovetskoy vlasti v Azerbaydjane*. Moskva: Nauka, 1972, 158.
[14] M.Ə. Musayev, *Bakı şəhərinin ticarəti...,* 73.
[15] Kaspiy, 16 maya 1917, №106.
[16] Kaspiy, 9 maya 1917, №102.

hallarına qarşı mübarizə, şəhər yeməkxanalarına rəhbərlik səlahiyyətləri verilmişdi.[17] Ərzaq komitələri həmçinin yerlərdə vətəndaşların təhlükəsizliyinin qorunması ilə də məşğul olmalı idilər. Bir sözlə, vətəndaşlar özləri mühüm problemlərin həll edilməsi yolunda hakimiyyət strukturlarına kömək etməli idilər. Məsələ burasında idi ki, ərzaq komitələrinə seçkilərdə əhalinin əksəriyyətini təşkil edən müsəlmanlar səslərin əksəriyyətini topladıqları halda, onların şəhərin bu vacib probleminin həllində iştirak etmək hüququ qazanmaqla idarəçilikdə rolu artrmış olurdu. Əlbəttə, bunu nəzərə alaraq Milli Komitə seçkilərin proporsionallıq prinsipi əsasında keçrilməsini təklif etsə də, "vəziyyətə nəzarət etməkdə olan" inqilabçı demokratlar tərəfindən bu qəbul olunmamışdı.

Lakin proporsionalliq prinsipi əsasında seçki keçirilməsi tələbi azərbaycanlıların haqlı tələbi idi. Bu barədə həmin dövrdə ictimai mətbuatda xeyli müzakirələr getmişdi. Bu zaman təkcə mülki ərzaq komitələrində deyil, digər demokratik təsisatlarda da -Bakı Soveti və İTİK-ndə bunun nəzərə alınması tələb olunmuşdu.[18]

Onu da qeyd etmək lazımdır ki, Bakı qradonaçalnikliyində (Bakı şəhəri ) mövcud olan 16 milis sahəsi əsasında formalaşdırılacaq ərzaq komitələrinin hər biri 25 nəfərdən ibarət olmalı idi. Lakin müsəlmanlar bununla razılaşmırdılar. Çünki elə sahə var idi ki, orada digərindən 4 dəfə çox əhali yaşayırdı. Belə olan halda orada işi görmək üçün 25 nəfərlik komitə azlıq edirdi.[19] Həmçinin də məhz müsəlmanların çoxluq təşkil etdikləri sahələr var idi.

Seçkiyə çox az zaman qalmasına baxmayaraq, Milli Komitə ciddi seçki təbliğatı aparmaqla mümkün qədər əhalini bu sahədə maarifləndirməyə çalışmışdı. İlk növbədə Müsavat partiyasının iradəsi ilə müsəlman qadınların da şeçkidə iştirakına nail olunmuşdu. Lakin bu işin yerinə yetirilməsi, dini nöqteyi-nəzərə görə bəzi texniki problemlər yaradırdı. Komitə tərəfindən müxtəlif yığıncaqlar düzəldilmiş, xüsusən müsəlman qadınlarının seçkidə iştirakının zəruliliyi izah edilmişdi.[20]

Mayın 21-də keçirilən seçkilərdə müsəlmanlar əksəriyyət qazanmışdılar. Belə ki, seçkilərdə iştirak edən 49, 525 min seçicidən 25, 550 nəfəri müsəlman təşkilatlarına, 20, 570 nəfəri isə sosialistlərə səs vermişdi.[21] Müsəlmanların qələbəsi onları narahat etmişdi. Lakin həm də onu qeyd etmək lazımdır ki, seçkilərin nəticələri milli demokratların özlərini də heyrətləndirmişdi və milli mətbuatda çap olunan silsilə məqalələr də bunu təsdiq edirdi. Əgər "Müsəlman Komitəsinin xəbərləri"ndə "müsəlmanların ətalətliliyi" fikrinin əsassız olması göstərilirdisə, "Açıq söz" daha da irəli gedərək bu seçkiləri müsəlman qüvvələrinin qiymətlənirilməsi üçün "*ehtiyat dərsi*" hesab etmişdi.[22] Seçkilərdən sonra M.Ə. Rəsulzadə "Solların

[17] İzvestiya Bakinskoqo Soveta.., 9 maya 1917, №.31.
[18] Kaspiy, 16 maya 1917, № 106.
[19] Kaspiy, 21 maya 1917, №111.
[20] Məmməd Əmin Rəsulzadə, *Əsərləri. 1917- aprel 1918.*, IV cild, Bakı: Qanun, 2013, 161.
[21] S. Belenkiy, A. Manvelov, *Revolyutsiya 1917 qoda v Azerbaydjane (xronika sobıtiy),)* Baku: Azerneşr, 1927, 54-55.
[22] Məmməd Əmin Rəsulzadə, *Əsərləri., IV cild.,* 224.

səhvi" məqaləsində azərbaycanlı əhalinin gücünü sosialistlər tərəfindən düzgün qiymətləndirilməməsinə diqqəti çəkir və yazırdı: *"Kim nə deyir desin, hansı böhtan və iftiralarla meydana çıxarsa çıxsın, burası şübhə götürməz bir həqiqətdir ki, müsəlman əhali bir qüvvətdi-ədəd qüvvəti"* [23]**.** Seçkilərin gedişində xeyli nöqsanlar olmasına baxmayaraq demokratik Rusiya tərkibində olan Bakıda demokratik üsulla keçirilən ilk seçkilər idi.

Seçkilər başa çatsa da, onun ətrafında söz-söhbət səngimək bilmirdi. Seçkilərdə müsəlman qadınların iştirakı müsəlmanların səs toplamasına həlledici təsir etmişdi. Seçki komissiyasının hesablamasına görə, Bakı şəhərində 14, 029 nəfər müsəlman qadın seçicinin 11 mini seçkidə iştirak etmişdi.[24] Baxmayaraq ki, müsəlman qadınlar ilk dəfə idi seçkiyə qoşulmuşdular, bununla belə, kütləvilik nümayiş etdirilmişdi. Doğrudur, bu addım daha çox müsəlman qadının siyasi anlamda şüurlu addımı olmayaraq, ailə başçısı olan kişilərin iradəsinin ifadəsi idi. Lakin mühafizəkar müsəlmanlıq mühitində bunun özü irəliyə doğru böyük bir addım idi. Tədqiqatçı S.Əzizbəyova qeyd edir ki, ərzaq komitələrinə seçkilər milli hərəkatın nüfuzunu qaldırır və onun inqilabi demokratiya ilə müttəfiqliyini müəyyən edirdi.[25] Təəssüf ki, inqilabi demokratiya bu müttəfiqliyi qəbul etmək fikrindən uzaq idi.

Bununla belə, Azərbaycan milli qüvvələrinin nümayəndələri seçkilərdən sonra daha cəsarətli şəkildə Bakı Sovetinə müraciətlə öz narazılıqlarını bildirməyə başlamışdılar. Bakı Sovetinin rəsmi qəzetində çıxan və müsəlmanları hədəfə alan məqalələrə etiraz olaraq "Müsəlman komitəsi xəbərləri" yazırdı: *" Beləliklə, Bakı Sovetinin "Xəbərləri" hesab edir ki, müsəlman təşkilatlar inqilabi demokratiyaya düşməndirllər. Bakıdakı Müsəlman demokratlarıdamı inqilaba düşməndilər? Volqaboyu müsəlmanlarının proletar əhalisi şurasıdamı?..Biz qəti bildiririk ki, belə bir müsəlman təşkilatı yoxdur.....Bu uğursuz ifadənin düzəldilməsini zəruri hesab edirik..İnqilabi demokratiya özü də öz ləngliyi ilə bəzi suallar doğurur...1. Niyə indiyə kimi mədənlərdəki müsəlman fəhlələr təşkil olunmayıblar və ya muxtar nümayəndəlik ala bilməyiblər.? 2. Niyə görə, rus dilini bilməmələrinə rəğmən, Bakı rayonunda müsəlman fəhlələrin muxtar təşkilatlarına olan hüququ inkar edilir? 3. Bakıda inqilabı demokratiyanın müsəlman fəhlələrin təşkilatlanmasında real fəaliyyəti özünü nədə göstərmişdir? ".*[26]

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, hələ aprelin 28-də Binəqədi mədənlərinin 500 nəfərə yaxın müsəlman (azərbaycanlı, ləzgi, tatar) fəhləsi toplaşaraq müstəqil müsəlman fəhlə komitəsi yaratmağa qərar vermişdilər. Bu zaman məqsəd müsəlman fəhlələr arasında sosialist ideyalarını yaymaq və Bakı Sovetinə dəstək olmaq idi.[27] Eynilə, digər bir fakt da maraq doğurur. Belə ki, Bakı

[23] Məmməd Əmin Rəsulzadə, *Əsərləri., IV cild.,* 224.
[24] Kaspiy, 26 iyulya 1917, №165.
[25] Sabina Azizbekova, *İstoriko -politiçeskiy analiz Azerbaydjanskoqo natsionalnoqo dvijeniya v russkoyazıçnoy peçati (mart-1917- aprel 1918),* Baku: Ecoprint, 2018, 23.
[26] Kaspiy, 25 maya 1917, №115.
[27] Qadjibaba Azimov, *Velikiy oktyabr v Azerbaydjane, Baku:* Az qos. İzdat., 1987, 33.

qradonaçalnikliyinin kənd cəmiyyətlərinin qurultayı öz nümayəndələrini Bakı Sovetinə göndərərək burada yer istəmişdi. [28] Bakı Sovetinin mətbuat orqanında verilən məlumata inanılsa, kəndlilərə həlledici səslə 2 yer də verilmişdi. Lakin Sovetin sonrakı iclaslarında müsəlman kəndlilər barədə bir sözə rast gəlinmir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu zaman yerli əhalisi siyasi şüurluluq baxımından daha geridə olan Türküstanda müsəlman sovetləri nümunəsi var idi. Belə ki, Daşkənddə ayrıca müsəlman Fəhlə Deputatları Soveti mövcud idi. Əndican Sovetinin Rəyasət heyətinə isə 14 özbək 2 rus daxil edilmişdi.[29]

Göründüyü kimi, bu seçkilər milli qüvvələrin idarəçilik orqanlarında “proporsionallıq prinsipi əsasında təmsil olunma” kimi ciddi bir tələbini aşkar şəkildə elan etmələrinə imkan yaratmışdı. Milli qüvvələrin tələblərinə baxmayaraq sosialist qüvvələr onların bu arzusunu gerçəkləşdirməkdə maraqlı deyildilər. Həmin dövrdə cəmiyyətdə antimüsəlman əhvali-ruhiyyənin mövcud olması belə demək olarsa, inqilabçı qüvvələrin “işini yüngülləşdirirdi”.

Burada başqa bir məsələyə də toxunmaq lazım gəlir. Beləki, Bakıda müsəlman əhalinin mövcud inqilabi hakimiyyət orqanlarının ərzaq siyasətindən narahat olaraq etdikləri və bəzən də görülən tədbirləri düzgün analiz etməmələrindən irəli gələn müəyyən çıxışları da müsəlmanların inqilaba qarşı olmaları fikrini qidalandıraraq son nəticədə yenə də antimüsəlman əhval-ruhiyyəni gücləndirirdi. Məsələn, iyun ayının 1-də ərzaq komitələri tərəfindən əhaliyə un kartoçkalarının vaxtında verilməməsi üzündən şəhər əhalisi arasında narazılıq yaranmışdı. Ərzaq idarəsi qarşısında xeyli hissəsi müsəlman qadınları olan əhali toplanmış və un tələb etmişdilər. İnqilabçı demokratlar müsəlman əhalinin tələbini onların demokratik müəssisələrə etibar etməmələri kimi qiymətləndirmişdilər**.** Müsəlman əhalinin çörək kartoçkalarına qarşı təbliğat etdiyini və buna görə də inqilaba xəyanət etdiyini göstərmişdilər**.**[30] Müsəlman demokratlar isə buna cavab olaraq, yenə də, bütün demokratik orqanlarda müsəlmanların da nümayəndələrinin olması zəruriliyini göstərir və məsələnin həllini ona bağlayırdılar.

Yalnız qeyd edilən məsələ deyil, digər inqilabi mahiyyətli hesab edilən məsələlərin həllində də milli qüvvələrlə fikir ayrılığı özünü biruzə verirdi. Məsələn, şəhər milisinin təşkili məsələsində bu özünü göstərmişdi. İnqilabdan sonra ilk vaxtlar Bakıda milis vəzifəsini qarnizon əsgərləri yerinə yetirirdilər. Avqust ayından artıq milislərin işə götürülməsində yeni qayda müəyyən edilmişdi. Belə ki, milis olmaq istəyənlər ictimai-siyasi təşkilatların verdiyi rəy məktubunu göstərməli idilər və bu zaman bir qayda olaraq sosialist partiyasından verilən rəylər əsas götürülürdü. Müsavat pariyasının məsələyə münasibətini ifadə edən M.Ə. Rəsulzadə bu qaydanın tətbiqinə öz etirazını bildirmiş, Bakıda sosialistlərdən də güclü

[28] İzvestiya Bakinskoqo Soveta.., 14 aprelya 1917, №.11.
[29] *İstoriya kommunistiçeskix orqanizatsiy Sredney Azii* , Taşkent, izdatelstvo Uzbekstan**,** 1967, 267.
[30] Məmməd Əmin Rəsulzadə, *Əsərləri, IV cild,* s.234.

və nüfuzlü təşkilatların olduğunu əsas gətirərək milisin təşkilində başqa üsul tapılmasını məqsədəuyğun hesab etmişdi. [31]

**Mədən-Zavod Rayonlarının Şəhərə Birləşdirilməsi Məsələsi**

Ərzaq məsələsindən fərqli olaraq, 1917-ci ilin yayında Bakının ictimai-siyasi gündəmini tutan digər məsələdə- yeni Dumaya seçkilərlə əlaqədar olaraq ortaya çıxan mədən-zavod rayonlarının şəhərə birləşdirilməsi məsələsində milli qüvvələrlə sosialistlər arasında mövqe fərqi daha qəti şəkildə özünü göstərmişdi. Sosialistlər tamamilə siyasi məqsəd güdərək bu məsələdə azərbaycanlıların maraqlarına qarşı çıxırdılar.

Belə ki, Müvəqqəti Hökumətin və Xüsusi Zaqafqaziya Komitəsinin (XZK) yerli hakimiyyətin təşkili haqqında qanunu özünüidarə hakimiyyətini hüquqi cəhətdən təsdiq edərək və İTİK-nin öz hakimiyyətini seçkilərdən sonra yeni demokratik Dumaya verməsini nəzərdə tutmuşdu. Bundan sonra bütün siyasi partiyalar Duma seçkisinə ciddi əhəmiyyət verməyə başlamışdılar. Şəhərin ictimai-həyatında demokratik seçkilərlə seçilmiş dumaların mövqeyinin möhkəmləndirilməsi tərəfdarı olan eser-menşeviklər hakimiyyət orqanı kimi Bakı Sovetinin deyil, Dumanın gücləndirilməsini məqsədəuyğun hesab edirdilər. Bakı Sovetində zəif mövqedə olan bolşeviklər də eynilə Duma seçkilərində qələbə qazanmağa niyyətli idilər. Azərbaycan milli qüvvələrinə gəldikdə isə, onsuz da Sovetdə təmsil olunmayan və İTİK-ndə də cüzi yerə sahib olan milli qüvvələr də Dumada əksəriyyət qazanacaqları halda şəhərin idarəsində mühüm rol oynayacaqdılar.

Müvəqqəti Hökumətin köhnə senzli Duma əvəzinə yeni demokratik tərkibli Duma yaradılması barədə qərarında şəhər ətraflarının da bələdiyyələrə daxil edilməsi şərtləri və mümkünlüyü göstərilmişdi.[32] Bu da öz növbəsində neft mədənləri rayonlarının inzibati cəhətdən şəhərə birləşdirilməsi məsələsini ortaya çıxarmışdı.

Məsələnin həllini sosialistlər (ilk növbədə bolşeviklər), milli-demokratlar, və neft sənayeçiləri müxtəlif cür görürdülər. Bolşeviklərin təklifinə görə, həmin mədən rayonları (bir neçə yaxın yerləşən kəndlərlə birlikdə) şəhərə birləşməli və onunla vahid özünüidarəyə aid edilməli idi. Təbliğat işini genişləndirən bolşeviklər mədənlərin şəhər idarəsi səlahiyyətlərindən kənarda qaldığını, fəhlələrin sosial-ictimai problemlərinin həlli üçün bu addımın zəruriliyini göstərərək birləşdirilmə tələbini irəli sürmüşdülər. Bu zaman onlar mədənlərin şəhərlə sıx iqtisadi əlaqəsinin olmasını, fəhlələrin xeyli hissəsinin şəhərdə yaşadıqlarını və mədənlərdə şəhər həyat tərzinin olmasını əsas gətirirdilər. Bu dövrdə hələ ki, dinc mübarizə aparan bolşeviklər birləşdirmə baş tutacağı halda mədən fəhlələrinin səsləri hesabına Dumaya seçkilərin nəticəsinin onların xeyirinə olacağına inanırdılar. Bu məsələdə fəhlələrin

[31] Acıq söz, 2 avqust 1917, № 535.
[32] Bakinskiy raboçiy, 23 iyulya 1917, № 30.

mənafeyini əsas götürdüklərini bəyan edən bolşeviklər həm də, onlar arasında nüfuz qazanmış olacaqdılar.

Bu məsələyə fəhlələrin münasibətini aydınlaşdırmaq üçün fəhlə rayonlarında hər halda ümumi rəy sorğusu keçirmək barədə menşeviklərin təklifi çıxılmaqla sosialist bloku bu məsələdə büsbütün bolşeviklərin tərəfində idi.[33] Milli-qüvvələr mədənlərin bütün Bakı kəndləri (33 kənd cəmiyyəti və ona daxil olan 45 kənd nəzərdə tutulur-A.Ə.) ilə birlikdə vahid zemstvo idarəsinə (Çar Rusiyasında 1864-1919-cu illərdə mövcud olan məhdud hüquqlu seçkili yerli idarə orqanı-A.Ə) daxil edilməsini təklif edirdilər. Onlar bununla mədənlərdən gələn gəlir hesabına Bakı kəndlərinin abadlaşdırılması və mədəni həyat səviyyəsinin yüksəldilməsinə nail olmağa çalışırdılar. M.Ə. Rəsulzadə həmin dövrdə məhz bu cür birləşmənin zəruriliyini ifadə edərək belə yazırdı: "*Mədən ət, kənd sümükdür. Sümüyü ətdən ayırmaq olmaz. Mədənlər kəndlərin qan damarıdır. Kəndləri qansız buraxmaq olmaz...*"[34] Beləliklə, müsəlman kəndləri mədənlərdən uzaq düşdüyü halda onlarda mədəni həyat tərzinin, sosial-ictimai vəziyyətin yaxşılaşdırılması üçün görüləsi tədbirlər mümkünsüz olurdu. Milli-demokratlar bolşeviklərin məqsədlərini düzgün qiymətləndirərək fəhlələri ona da diqqət yetirməyə çağırırdılar ki, mədənlər şəhərə birləşdikdə yaranan yeni Dumada mədənlərdən seçilən fəhlə nümayəndələri onsuz da say hesabı ilə üstünlük qazana bilməyəcək və bu səbəbdən də, öz xeyirlərinə qərarlar verilməsinə nail ola bilməyəcəklər. Əksinə, kəndlərlə birgə zemstvo yardılacağı təqdirdə ictimai idarə işində aparıcı qüvvələr yenə də fəhlə nümayəndələri (onların ictimai-siyasi fəallığı səbəbindən-A.Ə.) olacaq.[35] Rəsulzadə tamamilə məntiqi şəkildə əsaslandırırdı ki, mədənlərin kəndlərlə birgəliyi heç də inqilab amilini zəiflətməyəcək və mədənləri yalnız şəhərə birləşdirmək istəyən bolşeviklər əslində fəhlələrin deyil, ilk növbədə öz siyasi mənafelərini güdürlər. Çünki bolşeviklərin mədənlərdə həyat səviyyəsinin yüksəldilməsi, mədənlərin abadlaşırılması, səhiyyə və sanitariya sahəsində işlər görüləcəyi barədə vədlərini yalnız şəhərə birləşməklə deyil, kəndlərlə birgə zemstvoda da həyata keçirmək mümkün idi.

Neft sənayeçiləri və ya mədən sahibləri isə öz mənfəətlərini güdərək mədənlərin ayrıca özününidarəsi olmasını istəməklə məsələnin həllində üçüncü yolu təklif edirdilər. Aydın idi ki, yaradılacaq zemstvo və ya şəhər özünüidarəsi daha çox yerli büdcə hesabına maliyyələşəcəkdi. Mədənlər isə bu zaman əsas maliyyə mənbəyi rolu oynamalı idi. Hər üç halda mədənlərdən gələn gəlirlər bələdiyyə və ya zemstvo büdcəsinin əsas hissəsini təşkil edəcəkdi. Burada isə burjuaziyanın məqsəd və niyyətləri mühüm rol oynayırdı. Məlumdur ki, neft mədənlərinin gəlirlərinin böyük hissəsi əsas etibarilə qeyri-azərbaycanlı kapitala məxsus idi. İsveç, ingilis, fransız kapitalistləri ilə yanaşı burada erməni milli burjuaziyasının çəkisi böyük idi. Ümumiyyətlə, həmin dövrdə Bakıda xırda və orta burjuaziyadan fərqli

[33] Nigar Ağamalıyeva (Maksvell, N.), "Yerli özünüidarə orqanlarının demokratikləşməsi və bu prosesdə siyasi partiyaların rolu". /*Azərbaycan tarixinin problemləri.* (məqalə toplusu) I hissə, Bakı, 1993, 129.
[34] Məmməd Əmin Rəsulzadə, *Əsərləri., IV cild,* 277.
[35] Məmməd Əmin Rəsulzadə, *Əsərləri, IV cild,* 284.

olaraq, iri burjuaziya sıralarında ermənilərin çəkisi böyük idi. Sözsüz ki, müsəlman kəndlərinin mədəni inkişafı nə erməni neft sənayeçilərinin, nə də, bolşeviklərin məqsədi deyildi. Bu yalnız Azərbaycan milli burjuaziya və milli demokratlarının məqsədləri ola bilərdi.

Məsələnin həlli üzərində bir neçə ay gərgin müzakirələr aparılmışdı. Bolşeviklər öz məqsədlərinə nail olmaq üçün İTİK-ə təsir etdiyi halda, milli qüvvələr öz maraqlarını Duma vasitəsi ilə həyata keçirməyə çalışırdılar. Həmin vaxt fəaliyyətdə olan Duma deputatlarının yarıya qədər azərbaycanlı idi.[36] Onların bəziləri Dumadan uzaqalaşsalar da, yenə orada kifayət qədər idilər. İTİK-də isə, məlum olduğu kimi, azərbaycanlı nümayəndələrin sayı cüzi idi.

Bolşeviklərin təzyiqi ilə Bakı Soveti bu məsələdə sosialistlərin maraqlarını həyata keçirmək üçün hərəkətə keçdi. İyun ayının əvvəlində Bakı Soveti həmin vaxt Petroqradda olan S.Şaumyan və S.Saakyana (sağ eser) Müvəqqəti Hökumətin qarşısında bu məsələni qaldırmaq, yəni mədənlərin şəhərə birlişdirilməsi barədə qərara nail olmaq barədə göstəriş vermişdi.[37] Qeyd etmək lazımdır ki, Bakı bolşeviklərinin lideri S.Şaumyan bu məsələnin həllində xüsusi canfəşanlıq edirdi. Çünki məhz bu məsələ bolşeviklərə siyasi dvidentlər vəd edirdi.

Daha sonra iyulun 26-da İTİK mədənlərin (Balaxanı, Suraxanı, Bibi-Heybət, Ağ şəhər rayonları) şəhərə birləşdirilməsi barədə qərar qəbul etmişdi. İTİK-in sözügedən qərarı qəbul etməsində Bakı Sovetinin bu orqandakı təmsilçiləri mühüm rol oynamışdılar. Belə ki, qərar qəbul edilən zaman həmin iclasda komitənin 25 üzvündən 15 nəfər iştirak etmişdi ki, onun da 10-u Bakı Sovetinin komitədəki nümayəndəsi idi. Komitə müvafiq qərarı Şaumyanın məruzəsini dinlədikdən sonra qəbul etmişdi.[38] Lakin İTİK-də olan Müsəlman Milli Komitəsi nümayəndələri məsələnin bu cür həllinə qəti etiraz etmişdilər. Bundan sonra məsələnin ciddiliyini nəzərə alan İTİK öz qərarını XZK-nin qarşısında müdafiə etmək üçün Şaumyan və Ter-Arakelyanı (Şaumyan həm də Bakı Sovetini İTİK-də təmsil edirdi.-A.Ə.) Tiflisə göndərmiş və XZK-nin mədənlərin dərhal şəhərə birləşdirilməsi barədə göstəriş verməsinə nail olmuşdular. Digər tərəfdən isə Bakı Şəhər Dumasından Tiflisə göndərilən nümayəndəlik müsəlman əhalinin məsələnin bu cür həllindən narazılığını və mədənlərdən ibarət ayrıca özünüidarə orqanı yaradılmasının fəhlələrin mənafeyinə daha uyğun olduğunu bildirmişdi. Burada bir məqama diqqət yetirmək də lazım gəlir. Belə ki, azərbaycanlı və erməni burjuaziyası mədənlərin şəhərə birləşdirilməsinə qarşı olmaqla ortaq fikirdə olduqları kimi, erməni burjuaziyası və bolşeviklər mədənlərin kəndlərlə birləşməsinin yolverilməzliyi fikrində birləşirdilər. Mədənlərin şəhərə birləşdirilməsinə qarşı çıxmaqda neft sənayeçilərinin mövqeyi milli-demokratların mövqeyi ilə üst-üstə düşsə də, müsəlman kəndlərinin birləşməsi məsələsində müsəlmanlar təcrid olunmuş vəziyyətdə qalırdılar. Buna baxmayaraq Azərbaycan

[36] Cəfər Cəfərli, *Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti ( 1893-1917).* Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı: 2004, 59.
[37] Baku, 2 sentyabrya 1917, №195.
[38] Kaspiy, 3 avqusta 1917, №172.

milli burjuaziya nümayəndələri və milli-demokratları öz qəti mövqeyindən çəkinməmişdilər. Sonradan Rəsulzadə yaranmış vəziyyəti təhlil edərək yazırdı: "... E*rməni burjuaziyası deyilən mədənçilərin keçmişdə söylədiklərini indi də fəhlə ideoloqları təkrar edirlər. Bu məsələdə Taqianosovlarla Şaumyanlar birləşirlər.*"[39] Avqustun 1-də XZK-nin Bakıya göndərdiyi komissiya uzun müzakirələrdən sonra bolşeviklərin istədiyi kimi qərar verərək mədənlərlə yanaşı 10 kəndin də şəhərə birləşməsi məqsədəuyğun hesab edilmişdi. Bu qərarla qətiyyən razılaşmayan Ə.M.Topçubaşov onu imzalamaqdan imtina etmışdı.[40] XZK-nin birləşdirmə barədə qərarı Bakı kəndlərinin də etirazına səbəb olmuşdu. Məhəmmədi, Sabunçu, Masazır, Xırdalan, Şamaxı, Şağan, Mərdəkan, Keşlə, Bülbülə, Balaxanı, Qobu, Suraxanı, Zabrat, Əmircan, Əhmədli, Maştağa, Xocahəsən kəndlilərinin daxil olduğu ittifaqa sədrlik edən İ. Aşurbəyov Bakı kəndliləri adından XZK üzvü M.Y.Cəfərova müraciət ünvanlayaraq kəndlərin mədənlərdən ayrılmasına mane olmağı xahiş etmişdi.[41] Məsələnin əhəmiyyətini, xüsusən də, onun siyasi nəticələrini dərk edən Müsavat partiyası öz mövqeyini sərt şəkildə ifadə etmişdi. Partiyanın lideri M.Ə. Rəsulzadə müsəlman kəndlisini *"Harda mədən, orda mən!"* tələbi ilə çıxış etmişdi. Lakin eyni zamanda o müsəlman kəndlilərin passivliyini də başa düşür və bu səbəbdən də üzünü müsəlman fəhlələrə tutaraq onları qəti etiraza səsləyirdi. Partiya sentyabrın 7-də bu məsələ ilə bağlı qətnamə qəbul edərək mədənlərin şəhərə birləşdirilməsinin yol verilməz olduğunu bəyan etmiş, ertəsi gün isə isə müsəlman fəhlələrin böyük mitinqi təşkil olunmuşdu. Burada Müsavat rəhbəri fəhlələrə aydın şəkildə izah etmişdi ki, bolşeviklərin vədlərinə baxmayaraq birləşmədən sonra mədənlərin gəlirləri elə şəhər xərclərinin ödənilməsinə gedəcək. Buna görə də, müsəlman fəhlələr çalışmalıdırlar ki, kəndlərin şəhərlərdən ayrılmasına və mədənlərin şəhərə birləşdirilməsinə yol verilməsin.[42]Demək olar ki, nəticə etibarilə, milli demokratların etirazları təsirsiz qalmamışdı. Belə ki, XZK -nın qərarına görə mədənlərin şəhər birləşməsi barədə qərar qəbul edilsə də, mədənlərlə bərabər Zığ, Bibiheybət, Sabunçu, Zabrat, Binəqədi, Suraxanı, Biləcəri, Əmircan (Əmirhacıyan), Digah, Bülbülə, Əhmədli, Keşlə, Balaxanı daxil olmaqla 13 Bakı kəndinin də birləşməsinə razılıq verilmişdi.[43] Bu məsələdə mütləq müvəfəqiyyət əldə edilmədiyini diqqətə çatdıran Müsavat lideri *"Bir dərs daha"* adlı məqaləsində müsəlman demokratiyasını birləşməyə və *"Daha ziyadə təşkilat, daha ziyadə ittihad!"* söyləməklə bu məsələdən dərs almağa çağırmışdı.[44] Sonradan sentyabrın axırlarında Müvəqqəti Hökumətin Daxili İşlər Nazirliyi yanında Xüsusi Müşavirə üzvlərindən təşkil edilən komissiyası mədənlərin şəhərə birləşdirilməsi barədə həmin qərarı ləğv etmişdi.[45]

---

39 Məmməd Əmin Rəsulzadə, *Əsərləri, IV cild*, 314.
40 İzvestiya Bakinskoqo Soveta.., 3 sentyabrya 1917, №126.
41 Kaspiy, 19 avqusta 1917, №185.
42 Kaspiy, 10 csentyabrya 1917, № 202.
43 Açıq söz, 11 sentyabr 1917, № 564.
44 Məmməd Əmin Rəsulzadə, *Əsərləri, IV cild.*, 32.
45 A. Adıgözəlova, *Fevral inqilabından sonra Şimali Azərbaycanda idarəçilik sistemi.*, Bakı: Elm və Təhsil, 2017, 104.

**Nəticə**

Göründüyü kimi, Fevral inqilabından sonra Bakının ictimai-siyasi həyatında özünü göstərən bir neçə məsələdə sosialistlərlə Azərbaycan milli qüvvələri arasında ziddiyyətlər ortaya çıxmışdı. Bu ilk öncə o səbəbdən baş vermişdi ki, eser, menşevik, bolşeviklər kimi Ümumrusiya siyasi qüvvələrinin Bakıdakı təmsilçiləri milli ərazidə həyata keçirdikləri sosial-ictimai tədbirlərdə milli amilləri nəzərə almırdılar. Halbuki, burada həmin dövrdə mülki ərzaq komitələrinə keçirilən seçkilər, daha sonra isə mədən ərazilərinin şəhərə birləşdirilməsi məsələsi sosialistlərə müsəlman əhalinin siyasi fəallıq göstərdiyini nümayiş etdirmişdi. Tərəflərin hadisələri ayrı-ayrı müstəvilərdə gördükləri aydın idi. Müsəlman əhalinin siyasi cəhətdən kifayət qədər şüurlu olmadığını və ətalətli kütlə olduğunu iddia edən inqilabi demokratların- sosialistlərin düşüncəsinə görə, müsəlmanlar inqilabi tədbirləri qəbul etmək istəmirlər, deməli, dolaysıyla inqilabın düşmənidirlər. Qarşı tərəf –Azərbaycan milli qüvvələri isə yaranmış vəziyyətdən çıxış yolu olaraq yeni yaradılan hakimiyyət orqanlarında lazımınca təmsil olunmanın zəruriliyini bildirirdi. Başqa sözlə, 1917-ci ilin mart-sentyabr aylarında baş verən bu hadisələr Bakıda Azərbaycan müsəlman əhalinin “demokratik hakimiyyət orqanları”nda, o cümlədən Bakı Sovetində təmsil olunmasını ziddiyyətlərin aradan qaldırılması üçün vacib şərt kimi ortaya çıxarırdı. Hadisələrin sonrakı inkişafı da inqilabi qüvvələrin-sosialistlərin bu məsələyə nə dərəcə də ciddi yanaşmalarından çox asılı olacaqdı.

## Mənbə və ədəbiyyat

ADIGÖZƏLOVA, A. *Fevral inqilabından sonra Şimali Azərbaycanda idarəçilik sistemi,* Bakı: Elm və Təhsil, 2017.

AĞAMALIYEVA, N. (MAKSVELL, N.), "Yerli özünüidarə orqanlarının demokratikləşməsi və bu prosesdə siyasi partiyaların rolu", *Azərbaycan tarixinin problemləri* (məqalə toplusu), I hissə, (1993): 120-135.

Açıq söz, 2 avqust 1917, № 535.

Açıq söz, 11 sentyabr 1917, № 564.

*Azərbaycan tarixi arxiv sənədlərində:1917-1920-ci illər.* I cild. Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivinin sənədləri, Bakı: Çaşıoğlu, 2010.

AZİMOV, Q. *Velikiy oktyabr v Azerbaydjane,* Baku: Az.Qost.izd, 1987.

AZİZBEKOVA, S. *İstoriko -politiçeskiy analiz Azerbaydjanskoqo natsionalnoqo dvijeniya v russkoyazıçnoy peçati (mart-1917- aprel 1918),* Baku: Ecoprint, 2018.

Bakinskiy raboçiy, 23 iyulya 1917, № 30.

Baku, 2 sentyabrya 1917, №195.

BAQİROVA, İ., Politiceskiye partii i orqanizatsii Azerbaydjana v naçale XX veka, Baku: Elm, 1998.

BELENKIY, S., MANVELOV, A., *Revolyutsiya 1917 qoda v Azerbaydjane (xronika sobıtiy,* Baku: Azerneşr, 1927.

*Bolşeviki v borbe za pobedu sotsialistiçeskoy revolyutsii v Azerbaydjane* 1917-1918qq., (dokumentı i materialı), Baku: Azerneşr,1957.

CƏFƏRLI, C. "Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti (1893-1917)", Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı, 2004.

*İstoriya kommunistiçeskix orqanizatsiy Sredney Azii,* Taşkent: İzdatelstvo Uzbekstan, 1967.

İzvestiya Soveta raboçix i voennıx deputatov Bakinskoqo rayona, 4 iyunya 1917, №.51. (bundan sonra: İzvestiya Bakinskoqo Soveta..)

İzvestiya Bakinskoqo Soveta.., 14 aprelya 1917, №.11.

İzvestiya Bakinskoqo Soveta.., 17 maya 1917, №.36.

İzvestiya Bakinskoqo Soveta.., 9 maya 1917, №.31.

İzvestiya Bakinskoqo Soveta.., 3 sentyabrya 1917, №126.

Kaspiy, 9 maya 1917, №102.

Kaspiy, 16 maya 1917, №106.

Kaspiy, 21 maya 1917, №111.

Kaspiy, 25 maya 1917, №115.

Kaspiy, 26 iyulya 1917, №165.

Kaspiy, 3 avqusta 1917, №172.

MUSAYEV, M. Ə. *XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti (1900-1917-ci illər)*, Bakı: Elm, 1975.

RƏSULZADƏ, M. Ə. *Əsərləri. 1917- aprel 1918.* IV cild, Bakı: Qanun, 2013.

SUMBATZADE, A.S. *Sotsialno-ekonomiçeskie predposılki pobedı sovetskoy vlasti v Azerbaydjane,* Moskva: Nauka, 1972.